# Məktəblilərin bayram sevinci





Dekabrın 29-da Xətai rayonundakı 257 saylı tam orta məktəbdə Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə tədbir keçirildi. Bu gün məktəbdə başqa bir ab-hava var idi. Tədbirin son işlərini yekunlaşdıran şagirdlərin həyəcanı, balaca fidanların bayram sevinci və vətənini sevən, vətənpərvər, əl-ələ verib bu möhtəşəm bayrama – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş tədbirə hazırlaşan, şagirdlərinə baxıb qürurlanan müəllimlərin fərəhi bir-birinə qarışmışdı. Hamı akt zalına toplaşdı. Al-əlvan, rəngbərəng bəzədilmiş akt zalının divarları Azərbaycan Respubli-




kasının Dövlət Himninin sədalarından sanki bir az da gözəlləşdi. Hamının üzündə bayram sevinci var idi. Dövlət himni səsləndirildikdən sonra məktəbin direktoru Qarat Qaratov çıxış etdi. O, ilk öncə bütün iştirakçıları Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik etdi və dedi: “Bu gün dünyada 50 milyondan artıq azərbaycanlı yaşayır. Azərbaycanın gücü, qüdrəti də elə bundan başlayır. Bu gücün qarşısında doğma vətənimiz günbəgün inkişaf edəcək, çiçəklənəcək. Bizim dünyanın hər yerində alimlərimiz, elm adamlarımız, tarixçilərimiz yaşayır. Vətənini sevən hər bir azərbaycanlının ürəyi harda olmasından asılı olmayaraq vətəni üçün döyünməli, vətəni üçün vurmalıdır. Bizim haqq səsimiz müasir Azərbaycanımızın qurucusu, memarı ulu öndər Heydər Əliyevin ideyalarını həyata keçirən Azərbaycanı çiçəklənən bir diyara çevirən, onu qələbələrə aparan İlham Əliyevin səyi, əməyi nəticəsində bütün dünyada duyulur. Bu gün Azərbaycan həm güclü, həm də etibarlı bir tərəfdaş kimi tanınır. Bütün azərbaycanlılar harda olursa-olsun fəxrlə “mən Azərbaycanlıyam” deyirlər. Bundan gözəl nə ola bilər. Dövlətimiz sizin kimi gəncləri xarici dövlətlərdə oxudur, dünya səviyyəsinə uyğun təhsil almanız üçün hər cür şərait yaradır. Belə dövlətin, belə millətin nümayəndəsi olmaq hər birimiz üçün fəxrdir. Siz də vətənimizə, dövlətinizə layiq olun. Bu gün mən hamınızın bu bayrama necə həvəslə hazırlaşdığınızı xüsusilə qeyd etmək istəyirəm. Yəqin ki, vətənin azadlığını, müqəddəsliyini və birliyini hər biriniz çox gözəl anlayırsız. Elə bugünkü bayramımız da məhz bunu əks etdirir”. Sonra söz təlim-tərbiyə işləri üzrə direktor müavini Şəhla Xəlilovaya verildi. Ş.Xəlilova da hamını bu gözəl bayram münasibətilə təbrik edərək dedi: “Arzu edirəm ki, bu il hər birimizə, bütünlükdə xalqımıza düşərli olsun. Harda yaşamasından asılı olmayaraq bütün xalqımız, millətimiz həmrəy olsun. Səngərdə ayıq-sayıq dayanan əsgərlərimiz qələbə müjdəsi ilə evlərinə dönsün. Yarım milyondan artıq olan azərbaycanlıların səsi dünyanın hər yerində eşidilsin. İbtidai sinif müəllimi Sevil Şirinova isə daha çox yeni ili qarşılamağa tələsən Şaxta baba, Qar qızı gözləyən balaca fidanları səhnəyə dəvət etdi. Onların ifasında bir-birindən maraqlı səhnəciklər göstərildi. Şeirlər, mahnılar səsləndi. Balacaların şən rəqsi tədbirə rəng qatdı. Məktəblilərin bayram sevincinə Xətai Rayon İcra Hakimiyyətinin nümayəndələri, valideynlər də qoşuldu. Tədbir şən musiqi sədaları altında yekunlaşdı.

**Mehparə ƏLİYEVA,**
**“Respublika”.**